# ƏDLİYYƏ

881 ÇAĞRI MƏRKƏZİ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 08 (257) avqust 2025


## Nazir Fərid Əhmədov Ağsu şəhərində vətəndaşları qəbul edib

**Ədliyyə naziri Fərid Əhmədov 8 avqust tarixində Ağsu şəhərində vətəndaşları qəbul edib.**



Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Ağsu, İsmayıllı, Şamaxı, Qobustan, Göyçay və Kürdəmir rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.



## Ədliyyə Nazirliyinin Çağrı Mərkəzi yenilənib

**Müraciətlərə operativ baxılması, vətəndaş məmnunluğunun artırılması, Nazirliyin fəaliyyət istiqamətləri üzrə vətəndaşları maraqlandıran məlumatların daha əlçatan olması məqsədilə Ədliyyə Nazirliyinin 881 Çağrı Mərkəzi müasir tələblərə cavab verən yenilənmiş formatda vətəndaşların istifadəsinə verilib.**



Çağrı Mərkəzinin fəaliyyəti ilə ədliyyə naziri Fərid Əhmədov yerində tanış olub.

881 Çağrı Mərkəzinin işində müasir dövrün tələbləri nəzərə alınaraq, innovativ texnologiyalar və müasir yanaşmalar tətbiq olunub.

Fəaliyyətinə 2022-ci ildən başlayan Çağrı Mərkəzində ötən dövr ərzində zəruri infrastrukturun yaradılması, maddi-texniki bazanın gücləndirilməsi və xidmət keyfiyyətinin artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Yenilənmiş Mərkəz ən müasir texnoloji avadanlıqlarla - o cümlədən interaktiv səsli cavablandırma (IVR) sistemi, səsboğucu cihazlar, proqram təminatı, texniki və metodiki vasitələrlə təchiz olunub.

881 Çağrı Mərkəzi vətəndaşlara qanunvericiliklə nəzərdə tutulmuş rəsmi iş günlərində saat 09:00-dan 18:00-dək xidmət göstərir.



## Ədliyyə nazirinin müavini Mübariz Əhmədov bölgələrdə yaşayan vətəndaşların müraciətlərini dinləyib

**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**







Avqustun 26-da Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Mübariz Əhmədov tərəfindən Şəmkir, İmişli, Xaçmaz və Göyçay regional ədliyyə idarələri ilə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbul keçirilib.

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda İcra xidməti və Bələdiyyələrlə iş baş idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı vətəndaş müraciətləri dinlənilib, qaldırılan məsələlərin bir qismi yerindəcə həll edilib, həmçinin vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.

# İcra prosesində yeni mərhələ: hərraclar tam rəqəmsallaşır, borclu şəxslərin hüquqları genişlənir

**Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş qanunvericiliyə son dəyişikliklərə əsasən ölkədə əmlakın satışı mexanizmi tamamilə yenidən formalaşdırılır.**

Yeni dəyişikliklər əmlakı satışa çıxarılan borcluların hüquqlarının müdafiəsini gücləndirir, əmlakın hərrac yolu ilə satışı prosesini tam rəqəmsallaşdırır, əmlakın satışı prosesində şəffaflığı və rəqabətliliyi təmin edir. Bu da ümumilikdə icra prosesinin effektivliyinin artırılmasını hədəfləyir.

Belə ki, ilk növbədə borclunun özünə əmlakın satılması üçün şərait yaradılır, ona qanunla nəzərdə tutulmuş qaydada əmlakı açıq bazar şəraitində daha yüksək qiymətə satmaq imkanı verilir. Borclu bu hüquqdan istifadə etmədikdə əmlak real bazar dəyərində tələbkara təklif olunur. Tələbkar qəbul etmədikdə isə




əmlak hər kəs üçün əlçatan olan elektron hərrac vasitəsilə rəqabətli şəraitdə satılır.

Hərracların tam rəqəmsal formada aparılması, rəqabətli və şəffaf hərrac mühitinin formalaşdırılması, satış prosesinin sürətləndirilməsi nəticə etibarilə həm tələbkarın, həm də borclunun maraqlarının qorunmasına xidmət edir.

Həmçinin dəyişikliklərə əsasən hərrac prosesinə mərkəzləşdirilmiş nəzarət mexanizmi də formalaşacaq.

Bundan başqa hərracdan əldə olunan əmlakların reyestr qeydiyyatı da rəqəmsallaşır. Artıq alıcı əmlakı hərracdan aldıqdan sonra müvafiq protokol daşınmaz əmlak üzərində yaranmış hüququn qeydə alınması üçün inteqrasiya olunmuş sistem vasitəsilə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestrinə göndəriləcək.

Dəyişikliklərə əsasən, borclu satılmış əmlakı təhvil vermədikdə əlavə məhkəmə çəkişməsinə ehtiyac qalmadan əmlakın boşaldılmasına da imkan yaradılır.

Yeni mexanizm ümumilikdə ədalətli və effektiv icra mühitinin formalaşdırılmasına və vətəndaş məmnunluğunun artırılmasına yönəlib.

# Nazir müavini: Qanunvericiliyə dəyişikliklər icra sistemində şəffaflığa və vətəndaş məmnunluğunun artırılmasına yönəlib

*Prezident İlham Əliyev tərəfindən ötən günlərdə icra haqqında qanunvericiliyə mühüm dəyişikliklər təsdiq edildi. Bu dəyişikliklər məhkəmə qərarlarının icrası prosesinə necə təsir göstərəcək? Yeni dəyişikliklər icra mexanizmində nəyi dəyişəcək? Ədliyyə nazirinin müavini Toğrul Hüseynov bununla bağlı APA-nın suallarını cavablandırıb:*



**- İcra haqqında qanunvericiliyə edilmiş son dəyişikliklərə əsasən ölkəmizdə əmlakın satışı mexanizmi yenidən formalaşdırılır. Bu dəyişikliklərin əsas mahiyyəti nədən ibarətdir?**

- Bəli, qəbul olunmuş yeni dəyişikliklər icra prosesində mühüm mərhələni təşkil edir. Əsas məqsəd borclunun hüquqlarının daha səmərəli müdafiəsi, şəffaf və rəqabətli satış mexanizminin yaradılmasıdır. Yeni qanunvericilik borclunun hüquqlarını qorumaqla yanaşı, tələbkarın maraqlarının da təmin olunmasına yönəlib. Ən önəmli yeniliklərdən biri qanunla nəzərdə tutulmuş qaydada borclulara şərait yaradılmasıdır ki, onlar əmlaklarını əvvəlcədən özləri sərbəst şəkildə bazarda sata bilsinlər. Əvvəlki qanunvericilikdə bu hüquq birbaşa nəzərdə tutulmamışdı, nəticədə borclular çox zaman satış prosesindən narazı qalırdılar. İndi isə Qanun borcluya bazar qiymətinə uyğun ədalətli satış imkanını tanıyır.

**- Bəs borclu əmlakı özü satmadıqda proses necə tənzimlənir?**

- Borclu bu hüquqdan istifadə etmədikdə əmlak real bazar dəyərində tələbkara təklif olunur. Tələbkar qəbul etmədikdə isə əmlak hər kəs üçün əlçatan olan elektron hərrac vasitəsilə rəqabətli şəraitdə satılır.

**- Qeyd etdiniz ki, əmlak elektron hərrac vasitəsilə satılacaq. Elektron hərraclara keçidin borclular və alıcılar üçün hansı üstünlükləri var?**

- Bəli, əmlakın hərrac yolu ilə satılması prosesi artıq tam rəqəmsallaşır. Kağız üzərində aparılan çoxsaylı yazışmalar, vaxt itkisi və əlavə xərclər aradan qaldırılır. Bu isə əmlakın daha operativ şəkildə və qanuna uyğun formada satışını təmin edir. İştirakçılar - istər ölkə daxilində, istərsə də xaricdə yaşayan şəxslər internet üzərindən elektron hərraclarda iştirak edə bilərlər.

**- Yəqin ki, bu, iştirakçıların sayına da təsir edir...**

- Tamamilə doğrudur. Elektron hərrac formatı iştirakçıların sayını ciddi şəkildə artırır, nəticədə əmlakın daha yüksək qiymətə satılması üçün rəqabətli mühit yaradır. Bu şərait həm borclunun, həm də tələbkarın maraqlarına cavab verir.

**- Hərracın şəffaflığı ilə bağlı hansı tədbirlər nəzərdə tutulur?**

- Əsas məqsədlərimizdən biri şəffaflıq və hesabatlılıqdır. Prosesin rəqəmsallaşması və mərkəzləşdirilmiş qaydada idarə olunması subyektiv amilləri minimuma endirir. Hərraclara vahid mərkəzdən nəzarət edilir, bütün mərhələlərə qanunvericiliyin tələblərinə uyğun riayət olunması təmin olunur. Bu da şəffaflığı dəfələrlə artırır və nəticədə vətəndaş narazılığına səbəb ola biləcək halların qarşısı alınır.

**- Nəzarət mexanizmi necə qurulacaq?**

- Hərracların təşkili və keçirilməsi vahid mərkəzdən idarə olunacaq. Satış prosesi real vaxtda izləniləcək, hesabatlılıq təmin ediləcək. Həmçinin satış nəticələrinin təhlili əsasında gələcəkdə daha təkmilləşmiş mexanizmlər tətbiq olunacaq.

**- Hərrac xərclərinin müəyyənləşdirilməsi ilə bağlı konkret yanaşma varmı?**

- Bəli, yeni qanun bu sahəyə də dəqiqlik gətirir. Artıq hərrac xərclərinin hansı subyektlər tərəfindən qarşılanacağı və konkret məbləği qanunvericiliklə müəyyən edilir. Nəticədə bu qeyri-müəyyənlikləri aradan qaldırır və aydın maliyyə mexanizmi yaradır. Bu isə sistemli və ədalətli yanaşma baxımından mühüm yenilikdir.

**- Hərracdan sonra alıcının əmlaka sahib olması prosesi necə həyata keçiriləcək?**

- Alıcı əmlakı hərracdan əldə etdikdən sonra müvafiq protokol avtomatik olaraq inteqrasiya olunmuş sistem vasitəsilə Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestrinə göndəriləcək. Beləliklə, daşınmaz əmlak üzərində mülkiyyət hüququnun reyestr qeydiyyatı tam rəqəmsal qaydada aparılacaq.

**- Son olaraq, bəzən borclu satılmış əmlakı təhvil verməkdən imtina edir. Yeni qanunla bu məsələ necə tənzimlənir?**

- Yeni mexanizm bu halların da qarşısını almağa yönəlib. Əvvəllər belə hallar yarananda alıcı əlavə olaraq məhkəməyə müraciət etməli olurdu. Yeni qanun bu problemi aradan qaldırır. Əgər borclu satılmış əmlakı könüllü şəkildə təhvil verməzsə, artıq əlavə məhkəmə çəkişməsinə ehtiyac qalmayacaq. Qanuna əsasən, əmlak birbaşa boşaldılır. Bu, həm alıcının hüquqlarını qoruyur, həm də icra prosesini sürətləndirir. Qəbul edilən dəyişikliklər hüquqi dövlət quruculuğu və vətəndaş məmnunluğu baxımından ciddi addımdır və icra prosesini yeni mərhələyə daşıyır.

# Azərbaycanda xüsusi icra məmurları fəaliyyətə başlayacaqlar




**Ölkəmizdə məhkəmə qərarlarının icrasının daha çevik və səmərəli həyata keçirilməsi məqsədilə xüsusi icra məmurları institutu yaradılır. Bununla əlaqədar Prezident İlham Əliyev tərəfindən "Xüsusi icra məmurları haqqında" Qanun təsdiq edilib.**

Sözügedən Qanuna əsasən, ölkəmizdə icranın qarışıq modelinə keçid planlaşdırılır. Bu modelə görə məhkəmə və digər orqanların qərarlarının icrası həm dövlət, həm də xüsusi icra məmurları tərəfindən həyata keçiriləcək.

Xüsusi icra məmurları məcburi icra orqanı statusuna malik olacaqlar. Onlar cinayət, inzibati xəta, inzibati mübahisələrə dair işlər, dövlət orqanlarının tərəf olduqları digər işlər, məişət zorakılığından mühafizə, məcburi müalicə, uşağın mənafeyi ilə bağlı işlərdən (aliment istisna olmaqla) başqa bütün qərarların icrasını həyata keçirə biləcəklər. O cümlədən, xüsusi icra məmurlarının fəaliyyətinin maliyyə dayanıqlığını təmin etmək üçün ilkin mərhələdə pul tələbləri ilə bağlı işlərin də xüsusi icra məmurları tərəfindən icrası nəzərdə tutulmuşdur.

Ali təhsilli Azərbaycan Respublikasının vətəndaşları xüsusi icra məmurları ola bilərlər. Xüsusi icra məmuru işləmək istəyən şəxslər test və müsahibədən ibarət olan müsabiqədən keçməklə ən azı 3 aylıq ilkin icbari hazırlığa və staj keçməyə cəlb olunacaqlar. Bundan sonra şəhadətnamə və xidməti vəsiqə veriləcək və onlar and içərək vəzifələrinin icrasına başlayacaqlar.

Müstəqil şəkildə fəaliyyət göstərən bu şəxslər yalnız qanuna tabe olaraq göstərdikləri xidmətlərdən əldə etdikləri vəsaitlə özlərini maliyyələşdirəcəklər. Eyni zamanda, onlar xüsusi icra məmurlarının özünüidarə orqanı olan Xüsusi İcra Məmurlarının Palatasında birləşərək onun daxili idarəçilik qaydalarına əməl etməlidirlər.

Qanunun tətbiqi ilə icra proseslərinin sürətlənməsi, vətəndaş məmnunluğunun artırılması, iş yerlərinin yaradılması, dövlət aparatının tədricən optimallaşması və yeni peşə mühitinin formalaşdırılması hədəflənib.

Qeyd edək ki, xüsusi icra institutunun tətbiqinə başlanılması məqsədilə xüsusi icra məmurlarının şəhadətləndirilməsi, icbari təlimi və fəaliyyəti üçün zəruri olan hüquqi aktlar hazırlanmalı, eyni zamanda bu sahədə institusional işlər aparılmalıdır. Bu səbəbdən xüsusi icra institutunun 2026-cı ildən tətbiqi nəzərdə tutulur.

# Xidmət rəisi: Xüsusi icra məmurları institutu məhkəmə qərarlarının icrasında effektivliyi artıracaq

*Prezident İlham Əliyev tərəfindən "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanıb. Artıq Azərbaycanda yeni bir təsisat - xüsusi icra məmurları institutu yaradılır. Sözügedən institutun yaradılması hansı ehtiyacdan irəli gəlir? Bu yeni təsisat məhkəmə qərarlarının icrası prosesinə necə təsir göstərəcək?*

*Mövzu ilə bağlı Ədliyyə Nazirliyinin İcra xidmətinin rəisi Vidadi Məmmədov APA-nın suallarını cavablandırıb.*

**- Prezident İlham Əliyev "Xüsusi icra məmurları haqqında" Qanunu təsdiq edib. Bu təsisat ölkəmizdə yenidir. Bəs xüsusi icra məmurları institutu hansı zərurətdən yaradılır və bu Qanunun qəbul edilməsində məqsəd nədir?**

- "Xüsusi icra məmurları haqqında" Qanun ölkəmizdə məhkəmə və digər dövlət orqanlarının qərarlarının icrasının daha səmərəli, operativ və şəffaf həyata keçirilməsi məqsədilə hazırlanıb. Belə ki, icra məmurlarının üzərinə düşən iş yükünün çoxluğu və icra proseslərinin ləngiməsi alternativ yanaşmalara ehtiyac yaradıb. Bu fonda xüsusi icra məmurları institutu icra mexanizminin çevikliyini və operativliyini artırmağı hədəfləyir. Bir sıra ölkələrdə tətbiq edilən xüsusi icra məmurları institutu artıq özünü doğruldub və həmin ölkələrdə məhkəmə qərarlarının icrası proseslərində effektivliyi artırıb. Bu institut Azərbaycanda da tətbiq edilməklə icra sahəsində qarışıq modelə keçidi nəzərdə tutur. Qanun dövlət icra məmurları ilə yanaşı, özəl əsaslarla fəaliyyət göstərəcək xüsusi icra məmurlarının da bu işə cəlb olunmasını təmin edir.

**- Qarışıq model dedikdə nə nəzərdə tutulur və bu modelin üstünlükləri nələrdir?**

- Qarışıq model icranın həm dövlət, həm də özəl icra məmurları tərəfindən həyata keçirilməsini nəzərdə tutur. Belə bir sistem hazırda Gürcüstan, Bolqarıstan, Ukrayna, Qazaxıstan, Portuqaliya, Serbiya, İslandiya, İsveçrə, İrlandiya kimi ölkələrdə mövcuddur. Bu modelin əsas üstünlüyü icra yükünün bölüşdürülməsi, qərarların icrasının daha çevik və məsuliyyətli şəkildə təmin edilməsidir. Çünki xüsusi icra məmuru göstərdiyi xidmətə görə birbaşa məsuliyyət daşıyır



və bu da onu işə daha məsuliyyətlə yanaşmağa sövq edir.

Bu institut dövlət icra modelinə əlavə dəstək mexanizmidir. Yeni mexanizmin ölkə üzrə mərhələli tətbiqi nəzərdə tutulur. Dövlət icra sisteminin üzərindəki ağır iş yükü tədricən və proporsional olaraq dövlət və xüsusi icra məmurları arasında bölünəcək, bununla da icra işlərinin səmərəli idarə edilməsinə nail olunacaqdır.

**- Xüsusi icra məmuru kimdir və onun hüquqi statusu necə müəyyən edilir?**

- Xüsusi icra məmuru məhkəmə və digər orqanların qərarlarını icra etmək üçün şəhadətnamə almış, peşəkar əsaslarla fəaliyyət göstərən fiziki şəxsdir. O, dövlət qulluqçusu deyil, lakin məcburi icra orqanı statusuna malikdir. Müstəqil olsa da, onun fəaliyyətinə həm məhkəmələr, həm Ədliyyə Nazirliyi, həm də yeni yaradılacaq xüsusi icra məmurlarının özünüidarə orqanı olan Xüsusi İcra Məmurlarının Palatası tərəfindən nəzarət mexanizmləri nəzərdə tutulur. O, yalnız qanuna tabedir və fəaliyyəti Azərbaycan Respublikasının icra qanunvericiliyinə əsaslanır.

**- Bəs kimlər xüsusi icra məmuru ola bilər? Onlara hansı tələblər qoyulur?**

- Ali təhsilli Azərbaycan Respublikasının vətəndaşları xüsusi icra məmuru ola bilərlər. Onlar test və müsahibədən ibarət müsabiqədən keçir, minimum 3 aylıq ilkin icbari hazırlıq və stajkeçmə proqramlarına cəlb edilirlər. Müsabiqə komissiyasının tərkibinə Ədliyyə Nazirliyi, Palata, Məhkəmə-Hüquq Şurası, Vəkillər Kollegiyası və Notariat Palatasının nümayəndələri daxildirlər. Müsabiqə, ilkin hazırlıq və staj mərhələlərini uğurla bitirmiş namizədə onun statusunu təsdiq edən şəhadətnamə və xidməti vəsiqə verilir və o, andı içərək vəzifənin icrasına başlayır.

**- Xüsusi icra məmurları hansı qərarları icra edə biləcəklər? Bütün növ qərarlarınmı icrasına səlahiyyətli olacaqlar?**

- Onlar cinayət və inzibati xəta işləri, dövlət orqanlarının tərəf olduğu bəzi mübahisələr və uşağın mənafeyi ilə bağlı işlər istisna olmaqla, bütün digər qərarların icrasını həyata keçirə biləcəklər. Uşağın mənafeyi ilə bağlı olan işlərdən yalnız alimentlə əlaqədar qərarların icraatı xüsusi icra məmurlarına verilə biləcək. Xüsusi icra məmurlarının fəaliyyətinin maliyyə dayanıqlığını təmin etmək üçün ilkin mərhələdə pul tələbləri ilə bağlı işlərin də xüsusi icra məmurları tərəfindən icrası nəzərdə tutulub.

Ən mühüm məqam odur ki, hazırkı dövrdə icra qurumlarında olan işlərin bir hissəsinin də tədricən xüsusi icra məmurlarına yönəldilməsi planlaşdırılır. Bu həm iş yükünü azaldacaq, həm də vətəndaş məmnunluğunun artırılmasına xidmət edəcəkdir.

**- Bəs xüsusi icra məmurlarının fəaliyyətinə nəzarət mezanizmi necə qurulacaq?**

- Onların fəaliyyətinə nəzarət Ədliyyə Nazirliyi və Palata, habelə məhkəmələr tərəfindən həyata keçiriləcək. Nazirlik həm planlı, həm də plandankənar yoxlamalar aparacaq, Palata etik davranış qaydalarına və daxili nizamnaməyə riayət olunmasını izləyəcək, şikayətlərə baxılması, müəyyən icra hərəkətlərinə icazələrin verilməsi qaydasında nəzarət isə məhkəmələrdə olacaq. Eyni zamanda, "Elektron icra" informasiya sistemi vasitəsilə onlayn nəzarət də həyata keçiriləcək. Aşkar olunan pozuntular intizam məsuliyyəti tədbirlərinə səbəb ola bilər, kobud pozuntu hallarında isə xüsusi icra məmurlarının şəhadətnaməsi ləğv edilərək fəaliyyətinə xitam veriləcəkdir.

**- Yeni yaradılmış xüsusi icra məmurları institutundan hansı nəticələr gözlənilir?**

- İlk növbədə, icra prosesinin sürətlənməsi, iş yükünün azaldılması, qərarların daha effektiv icra edilməsi hədəflənir. Eyni zamanda, bu institutun formalaşması hüquq sahəsində yeni nüfuzlu peşə mühitini formalaşdırmaqla məşğulluğun artırılmasına da əhəmiyyətli töhfə verəcəkdir. Bu addım, həmçinin uzaq perspektivdə dövlət aparatının optimallaşdırılması, xərclərə qənaət istiqamətində də mühüm mərhələ olacaqdır.

**- Son olaraq, xüsusi icra institutunun tam fəaliyyətə başlaması nə zamana nəzərdə tutulur?**

- Xüsusi icra institutunun tətbiqinə başlanılması məqsədilə xüsusi icra məmurlarının şəhadətləndirilməsi, icbari təlimi və fəaliyyəti üçün zəruri olan hüquqi aktlar hazırlanmalı, eyni zamanda bu sahədə institusional işlər aparılmalıdır. Bu səbəbdən xüsusi icra institutunun 2026-cı ildən etibarən tətbiqi nəzərdə tutulur.

# Bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirilir

**Vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq videoqəbullar təşkil edilir.**

Avqust ayı ərzində Nazirliyin İnsan resursları idarəsi, Notariat, qeydiyyat və reyestr baş idarəsi və İcra xidmətinin rəhbərliyi tərəfindən Şəki, Şirvan, İmişli, Xaçmaz, Göyçay, Lənkəran, Bərdə, Şəmkir və Gəncə regional ədliyyə idarələri ilə birlikdə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullar keçirilib.

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbullarda Nazirliyin fəaliyyət istiqamətləri üzrə 34 vətəndaşın müraciəti dinlənilib, qaldırılan məsələlərin bir qismi yerindəcə həll edilib, həmçinin vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.




Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.

## Ədliyyə işçilərinin könüllü qanvermə aksiyası keçirilib

**Ədliyyə Nazirliyi və Səhiyyə Nazirliyi "Respublika Qan Bankı"nın birgə təşkilatçılığı ilə talassemiyalı və hemofiliyalı xəstələrə yardım məqsədilə 5-8 avqust tarixlərində ədliyyə işçilərinin qanvermə aksiyası keçirilib.**

Bu çərçivədə qanvermə 8 avqust tarixində Nazirliyin aparatında davam etdirilib və aparatın əməkdaşları könüllü donorluq edərək qan xəstəliklərindən əziyyət çəkənlərin müalicəsinə töhfə veriblər.





## Gənc əsgərlərin andiçmə mərasimi keçirilib

**Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Mühafizə alayında ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi ədliyyə general-mayoru Mirsaleh Seyidovun iştirakı ilə həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimi keçirilib.**

Dövlət Himni səsləndirildikdən sonra Dövlət Bayrağı hərbi marş sədaları altında meydanın mərkəzinə gətirilib, şəhidlərin abidəsi önünə gül dəstələri qoyulub, onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ədliyyə sahəsində həyata keçirilən uğurlu islahatlar, o cümlədən, Mühafizə alayının öz vəzifələrini bu gün də layiqincə icra etdiyi qeyd olunub.

Ədliyyə naziri III dərəcəli dövlət ədliyyə müşaviri Fərid Əhmədovun təbrik və tövsiyələri gənc əsgərlərin diqqətinə çatdırılıb.

Vətənə, xalqa və dövlətə sədaqət andı içən gənc əsgərlər Ali Baş Komandanın əmrinə hər zaman hazır olduqlarını, nizam-intizamı qoruyacaqlarını bildiriblər.

Sonda şəxsi heyətin marş sədaları altında təntənəli keçidi izlənilib.



# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Qarabağ Qaziləri" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.04.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q9-2047
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni hüquqi ünvanı: Bakı şəhəri, Nizami rayonu, 8-ci km. qəsəbəsi, Naxçıvanski küçəsi, ev 60, mənzil 26, qanuni təmsilçisi Əliyev Asəf Kərim oğlu olmuşdur
**Dəyişiklik:** 07.08.2025-ci il tarixdə qeydə alınıb

### "Cəmiyyətin və Medianın İnkişafı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.09.2021-ci il
**Qeydiyyat N-si:** 1121-Q77-3950
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Azərtaş Lalə Qabil qızı olmuşdur
**Dəyişiklik:** 07.08.2025-ci il tarixdə qeydə alınıb

### "Göyərçin" təhsilin inkişafına dəstək ictimai birliyi

**Qeydiyyat tarixi:** 01.05.2020-ci il
**Qeydiyyat N-si:** 1120-Q73-3826
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Kərimova Nərmin Çingiz qızı olmuşdur
**Dəyişiklik:** 08.08.2025-ci il tarixdə qeydə alınıb

### "Sivilizasiya" Monitorinq və Araşdırmalar ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.03.2003-cü il
**Qeydiyyat N-si:** 1103-Q1-1422
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəhimov Anar Nəriman oğlu olmuşdur
**Dəyişiklik:** 11.08.2025-ci il tarixdə qeydə alınıb

### "Neftçilər Klubu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.08.2012-ci il
**Qeydiyyat N-si:** 1112-Q41-3088
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən sədr vəzifəsinin icrası həvalə edilmiş Mustafayev Comərd Yavər oğlu olmuşdur
**Dəyişiklik:** 12.08.2025-ci il tarixdə qeydə alınıb

### Turizm və Ekskursiyalar üzrə Azərbaycan Respublikası Şurası

Qeydiyyat tarixi: 30.03.1994-cü il
**Qeydiyyat N-si:** 520A
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsinin qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Vahabzadə Nigar Mirqasım qızı olmuşdur
**Dəyişiklik:** 14.08.2025-ci il tarixdə qeydə alınıb

### "Azadlıq Hərəkatçıları" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.04.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q10-2068
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Novruzov Təhmasib Yüzasif oğlu olmuşdur
**Dəyişiklik:** 18.08.2025-ci il tarixdə qeydə alınıb

### "Nizami-14" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

Qeydiyyat tarixi: 31.03.2022-ci il
**Qeydiyyat N-si:** 1122-MM9-0237
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Şükürova Ülviyyə Məmməd qızı olmuşdur
**Dəyişiklik:** 18.08.2025-ci il tarixdə qeydə alınıb

### "Gənclik və Maarifçilik" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.04.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q32-2853
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əmikişiyev Vaqif Qoçu oğlu olmuşdur
**Dəyişiklik:** 18.08.2025-ci il tarixdə qeydə alınıb

### "Uğurlu Gələcək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q32-2871
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Mirzəyev Heydər Mehman oğlu olmuşdur
**Dəyişiklik:** 18.08.2025-ci il tarixdə qeydə alınıb

### "Yoluxucu Xəstəliklərlə Mübarizə" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.10.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q23-2581
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Xəlilov Emin Fikrət oğlu olmuşdur
**Dəyişiklik:** 19.08.2025-ci il tarixdə qeydə alınıb

### ELAN

12.08.2005-ci il tarixdə 44 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Azadlıq Partiyası ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Mətbuat prospekti, 24.

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 30.04.2025 tarixli Qərarı ilə dövlət qeydiyyatına alınmış "Nizami-18" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərcolunduqdan sonra altmış gün ərzində təşkilata olan tələblərini aşağıda göstərilmiş ünvana bildirsinlər: Bakı şəhəri, Nizami rayonu, R.Rüstəmov küçəsi, ev 44D mənzil 7

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 01.03.2016-cı il tarixli Qərarı ilə 1116-QK6-0023 nömrə ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutu ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər:
Bakı şəhəri, İstiqlaliyyət küçəsi 30.

**Təsisçi:**
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
**Buraxılışa məsul:**
Rasim Həsənov

**Ünvan:**
Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1.
Tel: 537-06-40

Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur.
Qəzet ayda bir dəfə çıxır.

Reyestr N 769